*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 195-205* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.195*

# Tarixi reallıq və bədii təxəyyülün vəhdətində Qazi Bürhanəddin obrazı

**Səltənət Əliyeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: selteneta@gmail.com

**Annotasiya.** Ədəbiyyatda geniş və əhatəli mövzuların, o cümlədən tarixi reallıqların oxuculara dəqiqliklə və aydın şəkildə çatdırılmasında roman janrının xüsusi rolu vardır. Yazıçı tarixi mövzulara müraciət edərkən, onun qarşısında bir sıra şərtlər qoyulur. Bədii təxəyyül və faktların nisbiliyini gözləmək, mövzu ilə bağlı zəngin mütaliəyə sahib olmaq, daha mürəkkəb hadisələrə müraciət etmək, təhriflərə yol verməmək və s. bu sıradandır. Türk yazıçısı Vedat Ali Tokun XIV əsrdə yaşamış Azərbaycan şairi Qazi Bürhanəddinin həyat yolundan bəhs edən romanında da bu prinsiplər gözlənilmişdir. Yalnız bəzən bədii təxəyyül və faktların romana yerləşdirilməsi məsələsində balans pozulmuşdur. Eləcə də romanda mübahisə yaradan məsələlərdən biri də Qazinin sufizmdən tamamilə uzaq olduğunun iddia edilməsidir. Məqalədə bu mövzuya toxunularaq qısa şəkildə Qazinin təsəvvüfdən uzaq olmadığı qənaətinə gəlinmişdir.
Müəllif Qazi Bürhanəddinin müsbət xüsusiyyətləri ilə səhvlərini, nöqsanlarını vəhdətdə vermiş, beləliklə də tarixi şəxsiyyəti ədəbi qəhrəmana çevirə bilmişdir.
**Açar sözlər:** roman, ədəbi qəhrəman, tarixi mövzu, hökmdar, bədii təxəyyül

**Məqalə tarixçəsi:** göndərilib – 19.06.2025; qəbul edilib – 10.07.2025

# The image of Gazi Burhaneddin in the unity of historical reality and artistic imagination

**Saltanat Aliyeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: selteneta@gmail.com

**Abstract.** The novel genre plays a special role in conveying broad and comprehensive topics in literature, including historical realities, to readers accurately and clearly. When a writer addresses historical topics, a number of conditions are placed before him. Expecting artistic imagination and relativity of facts, having a rich reading on the subject, addressing more complex events, avoiding distortions, etc. is commonplace. These principles were also anticipated in Turkish writer Vedat Ali Tok's novel about the life of Azerbaijani poet Gazi Burhaneddin, who lived in the 14th century. Only sometimes the balance between artistic imagination and the incorporation of facts into the novel is disturbed. Also, one of the controversial issues in the novel is the claim that Gazi is completely far from Sufism. The article briefly touches on this topic and concludes that Gazi was not far from Sufism.
The author combined Gazi Burhaneddin's positive qualities with his mistakes and shortcomings, thus transforming the historical figure into a literary hero.
**Keywords:** novel, literary hero, historical theme, ruler, artistic imagination

**Article history:** received – 19.06.2025; accepted − 10.07.2025

## Giriş / *Introduction*

Tarixi gerçəkliklərin, o cümlədən tarixi şəxsiyyətlərin həyat və fəaliyyətlərinin bədii təxəyyül və estetik vasitələrlə birləşdirilərək bədiilik fonunda oxucuya təqdimində roman janrının müstəsna əhəmiyyəti vardır. "Romançılığın böyük sürətlə inkişafı ədəbiyyatın aparıcı bir janrına çevrilməsi ictimai-analitik səciyyəsi, ictimai-siyasi hadisələrə, həyat əksliklərinə, münasibətlərə geniş çərçivədə nüfuzu, həyatı daha əhatəli, daha çeşidli şəkildə təsviri, obraz və xarakterlərin kamilliyi" [8, s.32] fikrimizin və yazıçı seçiminin nə qədər doğru olduğunu deməyə əsas verir. Başqa sözlə desək, digər janrlardan fərqli olaraq, roman öz elastik strukturu, çoxşaxəli süjet imkanları ilə müəllifə təqdim etmək istədiyini daha əhatəli və hərtərəfli şəkildə çatdırmaq imkanı verir. Məhz bu cəhətdən – müfəssəl epik lövhələrlə zəngin olan tarixi mövzuları əksetdirmə imkanlarının genişliyi baxımından roman ən ideal janrdır. Fikrimizcə, tarixi mövzuların ədəbiyyata gətirilməsi, hətta roman janrının inkişafına təkan verən səbəblərdən biri kimi dəyərləndirilə bilər. Bəs tarixi həqiqətlərin roman vasitəsilə bədiiləşdirilməsi hansı prinsipə əsaslanır?

Əlbəttə ki, bu zaman tarixi faktların təhrifindən söhbət gedə bilməz və bu yolverilməzdir. Lakin elmi tarixin bizə təqdim etdiyi müəyyən tarixi materiallara yazıçı baxışı, yazıçı təxəyyülünə əsaslanan məqamlar elə o tarixi faktlar qədər mühüm, eyni zamanda dəyərlidir. Çünki oxucu müəllifin bədii təxəyyülü sayəsində ədəbi dəyər qazanan əsərdəki prosesi məntiqi qavramadan daha çox hissləri, duyğuları ilə mənimsəyir. Nəticədə bədii yaradıcılıq süzgəcindən keçirilən tarixi reallıqlar, dövrün ümumi mənzərəsi, ab-havası, o cümlədən dünyagörüşü və psixologiyası, düşüncələri, hiss və duyğuları açıq şəkildə ifadə edilən tarixi şəxsiyyətlər roman mövzusuna və roman qəhrəmanına çevrilərək daha təsirli və emosional şəkildə oxucu qəlbinə nüfuz edir, oradan da şüurlara yeriyərək yaddaşlarda dərin və silinməz iz buraxır. Beləliklə, tarixi materiallardan duyula bilməyən məqamlar bədii ədəbiyyatda asanlıqla öz həllini tapır. Sanki bədii ədəbiyyat həmin hadisələrə yeni bir yaşam, tarixi şəxsiyyətlərə yeni bir ruh verir. Mehdi Hüseynin dili ilə desək, "Tarixçi dövrün ümumi ictimai münasibətlərini əks etdirirsə, yazıçı ən çox dövrün psixologiyasını təşrih edir. Tarixçi psixoloq deyildir. Lakin sənətkar psixoloq olmalıdır. Bunsuz tarix elmi yaransa da, tarixi-bədii əsər yarana bilməz!" [7, s.273] Həmçinin "tarixi romanlarda məişət səhnələri, xalqın adət və ənənələri də bədii söz vasitəsilə canlı ifadəsini tapır. Tarixi romanlarda tarixçi, etnoqraf, filosofun demədiyi məsələlər – insanların mənəvi aləmi göstərilir" [1, s.208]. Elə buna görə oxucu ilə obrazlı şəkildə intelektual bağ qurularkən yazıçı, nəyi, necə yazmalı olduğunu götür-qoy etməli, oxucuya təlqin edəcəyi məqamı dəqiq bilməlidir. Roman müəllifi tarixi reallıqlara, faktlara öz qələmi ilə ikinci həyat verməklə yanaşı, onun gələcək nəsillərə ötürülməsində və onların mənəvi yaddaşının formalaşmasında mühüm rol oynayır. "Keçmişin dərki prosesində bədii tarixin rolu elmi tarixin əhəmiyyətindən heç də az deyil və buna görə də tarixi həqiqətlərin bədii gerçəkliyə çevrilməsi böyük fəlsəfi-estetik dəyəri olan məsələ hesab edilir" [3, s.259]. Bu amil tarixi faktların təhrifinin yolverilməzliyini bir daha labüd edir. Eyni zamanda yazıçının qələmə alacağı tarixi gerçəkliyi dərindən bilməsi və güclü mütaliəyə sahib olması tarixi roman müəllifi üçün mütləq olan cəhətlər sırasındadır.

Diqqət mərkəzində olan məsələlərdən biri də siyasi fəaliyyəti ilə yanaşı, ədəbi yaradıcılıqla məşğul olan tarixi şəxsiyyətlərin bədii portreti yaradılmış romanlarda psixoloji məqamların çoxluq təşkil etməsidir. Belə ki, ədəbi yaradıcılığı bu cür simaların düşüncələrini, gərgin psixoloji məqamlarda yaşadıqları ruhi-mənəvi halı qabarıq şəkildə təcəssüm etdirdiyi üçün yazıçı onları asanlıqla tarixi faktlara sintez edə bilir və bu zaman əsərin təsir gücü birə-on qat artır. Şah İsmayıl Xətayi haqqında Fərman Kərimzadənin "Çaldıran döyüşü", "Xudafərin körpüsü", Əlisa Nicatın

“Qızılbaşlar”, Əzizə Cəfərzadənin “Bakı 1501”, Molla Pənah Vaqif haqqında Yusif Vəzir Çəmənzəminlinin “İki od arasında” və ya “Qan içində” romanı, Nizami Gəncəvinin obrazı yaradılmış Məmməd Səid Ordubadinin “Qılınc və qələm”, Oqtay Salamzadənin “Əsrlərin sirri” və s. bu tip romanlardandır. Biz bu sənətkarların ictimai-siyasi fəaliyyətlərinin: yürütdükləri siyasi gedişlərin, apardıqları döyüşlərin, bağladıqları sazişlərin nəticəsini dəqiqliklə tarixi faktlardan əldə edir və onları ictimai-siyasi xadim kimi qəbul edirik. Ətraf aləmə münasibətləri, duyğuları, hissləri və s. psixoloji dərinliklərlə yaratdıqları bədii əsərlərdə tanış oluruq. Roman isə onları bizə bir bütöv halında – xarakter kimi tanıdır. Yazıçı qələminin köməyi ilə sanki müasirimizə çevrilirlər.

Bu nöqteyi-nəzərdən yanaşdıqda tarixi romanlar qələmə alınarkən diqqət ediləsi məsələlərdən biri də uğurlu mövzu seçimidir. Bu, məsuliyyətli və yaradıcı yanaşma tələb edən bir prosesdir. Mövzu müəyyənləşdirilərkən daim aktual olan, mürəkkəb, ziddiyyətli, eyni zamanda daha çox maraq doğuran tarixi-siyasi hadisələrə, tarixi şəxsiyyətlərlə bağlı materiallara müraciət qarışıq məsələlərə bədii yöndən aydınlıq gətirmək məqsədi güdürsə, digər tərəfdən də geniş oxucu auditoriyasına çıxmaq baxımından zəruridir.

## Əsas hissə / *Main Part*

Mürəkkəb və ziddiyyətli dövrdə – XIV əsrdə yaşamış və Şərqi Anadolunun siyasi həyatında mühüm rol oynamış Azərbaycan şairi Qazi Bürhanəddin Əhmədin yaşadığı dönəm, ictimai-siyasi fəaliyyəti, hökmdarlığı, alimliyi, bununla bərabər, həm də şair kimi ədəbi fəaliyyəti roman yazıçılarının diqqətindən kənarda qalmamış, bu maraq və diqqət sənətkarın təqdir olunaraq gələcək nəsillərə tanıdılmaq, yaddaşlara həkk etdirilmək istəyi ilə bir də roman qəhrəmanı kimi oxuculara təqdiminə rəvac vermişdir.

Qazi Bürhanəddin Əhməd Ərtənə (Eretna) dövlətinin qalıqları üzərində qurub yaratdığı və adını daşıyan dövlətə 17 il hökmdarlıq etmişdir. Hökmdarlığı dönəmində nə sərkərdəliyi, nə də şairliyi tərk etmiş, bir əlində qılınc, bir əlində qələm saysız-hesabsız döyüşlər aparmış, qələbələr qazanmışdır. Hətta işğalları, qəddarlığı və amansızlığı ilə dünyaya meydan oxuyaraq bir çox hökmdarların gözünü qorxudan Teymurləng belə ona bata bilməmişdir. Dəfələrlə hədələrlə dolu məktublar göndərsə də, Bürhanəddin onun təslimiyyət çağırışlarına məhəl qoymamış, psixoloji təzyiqlərinə boyun əyməmiş, müdrik diplomatiyası, siyasi uzaqgörənliyi və güclü xarakteri sayəsində hakimiyyətini qoruyub saxlaya bilmişdir.

Bürhanəddinin cəsarəti, qəhrəmanlığı və ağıllı idarəçiliyi, güclü siyasəti haqqında bir çox ərəb, türk və digər tarixi mənbələrdə: Esterabadi, ibn Həcər Əsqəlani, Daşkörpüzadə, Əhməd ibn Məhəmməd ibn Ərəbşah, İohan Şiltberqer və b.-nın əsərlərində məlumat verilmişdir**.** Bütünlükdə Qazinin siyasi və hərbi gücünü ön plana çıxaran və hökmdar-şairin istəyi ilə müasiri Aziz ibn Erdeşir Esterabadi tərəfindən qələmə alınan ən etibarlı mənbə – “Bezm u Rezm” əsərində hakimlik (qazılıq), müəllimlik və alimlik fəaliyyətinə də diqqət yetirilmişdir [4]. Yeri gəlmişkən, əsər tarixi səciyyə daşıdığı üçün bədii yaradıcılığı işıqlandırılmamışdır. Hökmdar və sərkərdə Qazi Bürhanəddini bizə başqa yöndə tanıdan “Divan”ı isə sənətkarın bədii yaradıcılığının əyani göstəricisidir.

Beləliklə, Qazi Bürhanəddin deyəndə, gözümüzdə bir tərəfdən ağır hökmlər verən, qanlar tökən, daim qılınc oynadan hökmdar və sərkərdə, digər tərəfdən dərin məzmunlu misraları ilə sevgilisi yolunda hər şeydən keçməyə hazır, çılğın məhəbbətlə sevən həssas aşiq canlanır. İki əks qütbün yazıçının təsəvvür və təxəyyülündə birləşdirilərək roman vasitəsilə bədii-emosional təqdimi isə şairi daha ideal və çoxcəhətli bir qəhrəman – ədəbi portret kimi diqqət mərkəzinə gətirir və biz sanki sənətkarı yenidən və daha yaxından tanıyır və anlayırıq. Və bununla yazıçı zəhməti sayəsində psixoloji məqamlarla, duyğulu anlarla zəngin, canlı və inandırıcı həyatla qarşılaşırıq.

Nəhayət, türk yazıçılarından Kəmal Dəmirəlin "XIV əsr bir türk dühası Qazi Bürhanəddin", Vedat Ali Tokun "Qazi", azərbaycanlı yazıçı Hüseynbala Mirələmovun "İki şair, iki sultan" romanının "Qazi Bürhanəddin dövlətinin süqutu" fəsli şairin həyat və fəaliyyətinə bədii şəkildə işıq salmışdır. Tarixi dönəmin və hökmdar-şairin həyatının hərtərfli əks etdirilməsi nöqteyi-nəzərindən bu əsərlər müqayisə edilərkən, Vedat Ali Tokun romanı hərtərəfliliyi, yəni şairin həyatının bütün mərhələlərini və fəaliyyət istiqamətlərini birləşdirib ifadə etmək bacarığı ilə seçilir və fikrimizcə, digərlərindən daha üstün və mükəmməldir. Burada mükəmməllik anlayışı romanın bədii keyfiyyətlərinin qiymətləndirilməsinin göstəricisi kimi deyil, əsasən, faktların genişliyi və dolğunluğuna nəzərən şərti mənada işlədilmişdir.

Hansı roman olursa olsun, uğurlu alınmasının şərtlərindən biri, yuxarıda qeyd etdiyimiz kimi, mövzu ilə bağlı zəngin mütaliəyə sahib olmaqdır. Tarixi mövzuya dərindən bələd olmadan, hadisələrin təfərrüatını bilmədən əlinə qələm alan şəxs romanda məlumat yoxsulluğu yaşayacağını qabaqcadan dərk etməlidir. Tədqiqat obyektimiz olan romanda həm XIII-XIV əsrlər konteksti, həm də Qazi haqqında məlumat bolluğu müəllifin mövzu ilə bağlı zəngin mütaliəyə sahibliyini deməyə əsas verir. Hətta ədibin sonda əldə etdiyi tarixi faktlar və materiallar üçün tədqiqatlarından faydalandığı bir çox elm sahiblərinə: İsmail Hakkı Uzunçarşılı, Ali Alparslan, Yaşar Yücel, Halit Erkiletlioğlu, Kemal Göde, Mürsel Öztürk Abdullah Kaya, Dilek Demir, Saadettin Baştürk və Fatma Ersem Yarğıca minnətdarlığı yazıçının bu prinsipə nə qədər həssaslıqla yanaşdığını bir daha nəzərimizə çatdırır.

Roman hər birinə başlıq verilmiş 41 kiçik hissədən ibarətdir. Bu başlıqlar, əsasən, Qazi Bürhanəddinin qəzəllərindən gətirilmiş misralar, beytlər və ya bütövlükdə tuyuqlardan ibarətdir. "Döşəkdə ölən igid murdar bolur", "Ətəyin tutduğum övliyaların. Gərək ki irişəydi bana duası, qanı", "Dövlətindən qaçan olur xaksar. Aşiq olur məşuqundan şərmsaz, Himmətümiz iki aləmdə gəzər. Nolsar Amasya, ya Niksar" [9, s.5, s.80, s.98] və s. bu qəbildəndir. Seçimi təsadüfi xarakter daşımayan misra və beytlər dəqiqliklə hissələrin məzmununa uyğunlaşdırılmışdır. Belə ki, bu müraciət əsərdə estetikliyi təmin etməklə yanaşı, poeziya və nəsrin qovuşmasına, Qazinin poetik dili, siyasi və dini mövqeyi arasında əlaqə qurulmasına xidmət edir. Bununla da romana klassik ruh və ədəbi ahəngdarlıq hakim kəsilir. Oxucu qəhrəmanı yalnız həlledici qərarlar verən, ömrü döyüşlərdə keçən tarixi bir şəxsiyyət kimi deyil, həm də daxili xüsusiyyətləri ilə tanıyır ki, əsərin içərisində Bürhanəddindən verilən tuyuqlar, qəzəllər də bu məqsədi davam etdirmişdir. Əsərin süjetinin mərkəzində hökmdar Qazi Bürhanəddin dayanır və hadisələr də baş qəhrəmanın – Qazi Bürhanəddinin dilindən verilir. Bu roman sadəcə, tarixi hadisələri əks etdirməsi ilə yox, həmçinin daxili və mənəvi mübarizəni özündə birləşdirməsi ilə fəlsəfi əsər kimi qiymətləndirilə bilər. Çünki əsər boyu Bürhanəddinin millət və dövlətin birliyi yolundakı çırpıntılarının, daxili aləmi ilə yaşadığı qarşıdurmaların şahidi oluruq.

Fərqli və maraqlı struktura malik romanın "Döşəkdə ölən igid murdar olur" [6, s.14] başlıqlı ilk hissəsi Bürhanəddinin ölümünü, daha doğrusu, Qara Yoluq Osman tərəfindən yaralandıqdan sonra meydanda öldürələcəyi anını və şairin ölüm ayağındakı düşüncələrini əhatə edir. Uğurla seçilən başlıq yalnız bir bölümün məzmununu deyil, bütövlükdə romanın məzmununu özündə birləşdirir. Fikrimizcə, məhz bu cəhətinə görə həm də bir epiqraf xarakteri daşıyır. Çünki başlıq romanda ömrü döyüşlərdə keçən bir sərkərdənin ağrılı taleyinə işarə funksiyası rolunu oynamaqla bizi əsas məzmuna istiqamətləndirir. Digər hissəyə keçidlə aydın olur ki, bu hissə əslində süjetin son mərhələsidir və bilərəkdən, məqsədli şəkildə əvvələ gətirilmiş, süjet forması pozulmuşdur. Şübhəsiz ki, müəllif analepsis adlandırılan və "geriyə dönüş" və ya "tərsinə qurulmuş süjet" mənasını ifadə edən texnikadan yararlanmaqla, oxucuda hadisələrin gedişatına maraq oyatmaq, onun diqqətini baş verən hadisələrə yönəltmək və sona qədər oxumağa təşviq etmək məqsədi güdmüş, əsərin daha cəlbedici, eyni anda da düşündürücü olmasını təmin etməyə çalışmışdır.

"Tarixi həqiqətlə yazıçı təxəyyülünün nisbəti, əlaqəsi tarixi romanda mühüm estetik şərtlərdən biridir [2, s.18]. Lakin roman üzərində apardığımız müşahidələr deməyə əsas verir ki, nasir bəzən qəhrəmanla bağlı əldə etdiyi məlumat və faktların hamısını əsərə daxil etməyə çalışmışdır. Müəllifin tarixi sənədlərə bu cür yanaşma tərzi bəzi məqamlarda romanın bədii-estetik qatında uyğunsuzluq yaradır, bədii dəyərinə xələl gətirir. Heç bir detalın gözdən qaçırılmama və oxucuya çatdırılma istəyi nəticəsində bədii təxəyyül zəifləyir, obrazların psixoloji dərinliyi və süjetin dinamizmi arxa plana keçir. Tarixilik bədiiliyə qalib gəlir, roman isə daha çox faktlarla dolu tarixi əsəri xatırladır. Əsərin əvvəlki hissələrində bu cür problem yaşanmasa da, bu meyil Qazi Bürhanəddinin hakimiyyətə gəlişindən, yəni adına dövlət yaratması mərhələsindən sonra daha aşkar formada üzə çıxır. Çünki çoxlu siyasi qarşıdurmaların yaşanması, döyüş səhnələrinin artması və Bürhanəddinin hadisələrin mərkəzində dayanması romanın tarixi istiqamətini gücləndirir, nəticədə, həqiqətən də bədii təxəyyül, obrazlılıq arxa planda, kölgədə qalır. Bununla da oxucu ilə emosional-estetik əlaqə yoxa çıxır.

Romana transfer olunmuş tarixi fakt və materiallar üzərində apardığımız müqayisə və müşahidələrimizin yekunu olaraq əminliklə deyə bilərik ki, bu prosesdə müəllif əldə etdiyi bir çox mənbələr içərisində Astarabadini əsas tutmuş və daha çox ona müraciət etmişdir. Hadisələrin tarixi – xronoloji ardıcıllığı, romanın ideya xətti, strukturu, bəzi abzas və hissələrin əsərdə eynilə təkrarlanması və bir çox paralelliklərin aydın şəkildə büruzə verilməsi qənaətlərimizin doğruluğunu təsdiq edən əsas göstəricilərdəndir.

Bezm u rezm"in "Kitabın yazılış sebebi" adlı bölümündə gələcəyə örnək kimi Qazinin Esterabadidən ictimai-siyasi fəaliyyəti haqqında bir əsər yazmasını xahiş etməsi [4, s.19-41], eləcə də Esterabadinin əsəri türk yox, fars dilində yazması məsələsinə "Kitabın konusunun özet olaraq anlatılması, onun birinci cilt olaraq sona ermesi" bölümündə aydınlıq gətirilmişdir [4, s.490-495]. Romanın "Cahanda ancılayın işi kankı ser-keş ider" [9, s.169] başlıqlı 38-ci hissəsində hökmdarın Esterabadiyə müraciəti "Bezm u rezm" əsərini xatırlamağımıza kifayət edir:

"Esterabadi!

"İyi ki, teklifimi kabul ettin. Bu işin ustası olduğunu duyduğum zaman səni çağırttım və hayatımı başdan-sona yazmanı istədim. Çünkü benim bu güne kadar yaşadıklarım sıradan insanların yaşadıkları gibi degil. İstiyorum ki, bən terki-dünya ettigimde yerimi dolduracak kim ise, benim kibi bir kahraman olsun" [9, s.169].

Lakin bizim hədəfimiz romanda yaradılmış Qazi Bürhanəddin obrazının tarixilikdən bədiiliyə keçid prosesini izləməkdir. Əsərdə qəhrəmanın uşaqlığından ölümünə qədərki həyat yolu – təhsili, qazılığı, müəllimliyi, alimliyi, vəzirliyi, naibliyi, hökmdarlığı ardıcıllıqla və əhatəli şəkildə təqdim olunur ki, bu da obrazı dərindən və daha geniş aspektdən təhlil etməyə imkan yaradır. Mərhələlərin bu cür təqdimi romanın həm də bioqrafik səciyyə daşımasını şərtləndirir. Tarixi şəxsiyyətdən ədəbi qəhrəman yaradılarkən, obrazın şəxsi dünyasına nəzər yetirilir, görünən fəaliyyətinin arxasında qalan daxili gərginlikləri, məqsədləri, arzuları, qorxuları – bir sözlə, bir insan olaraq mənəvi dünyası müxtəlif bədii üsul və vasitələrlə – daxili monoloq, psixoloji portret, dialoq və s.-lə canlandırılır.

Sənətkarın bədii obrazını izlədikcə məlum olur ki, hökmdarlığa qədərki müddətdə çətin sınaqlardan keçmiş bu tarixi şəxsiyyət xaraktercə möhkəm, iradəli, sədaqətli, bağışlamağı bacaran, mərhəmətli, səxavətli və xalqının rifahı uğrunda çalışan şəxs olmuşdur. Ancaq bununla yanaşı, yeri gəldikdə, qəddar, öz yaxınlarına belə mərhəmət göstərməyən, bəzi məqamlarda mənfəəti naminə susmağı bacaran obraz olaraq da oxucuları düşündürməyi bacarmışdır. Eyni zamanda həyəcanla sevən aşiq, övladı üçün ürəyi parçalanan ata, düşmənini belə qiymətləndirməyi bacaran mərd sərkərdə kimi oxucunun yaddaşına həkk olunur. Biz romanda Qazini addım-addım izləyir, mərhələ-mərhələ tanıyırıq.

Hələ ilk səhifələrdə qarşımızda parlaq gələcəkdən xəbər verən dərrakəli, zəkası ilə hər kəsi heyran edən, ən yaxşı müəllimlərdən təhsil alaraq gələcəkdə ata-babalarından ona ötürülən qazılıq vəzifəsini layiqincə tutumağa hazırlanan, eyni zamanda da bu parlaqlığın arxasında görünməz olan zülmətdə ağır bir yük – anasızlıq dərdini daşıyan və bu dərdi ilə tənha qalan və hətta tənhalığını gizlətməyə məhkum bir uşaq canlanır.

Hələ erkən yaşda anasızlığın acısını dadan Bürhanəddinin həsrəti, üzünü görmədiyi anasına sevgisi və ona ehtiyacının romanda təsirli və ürək ağrıdıcı dillə ifadəsi ilk başlanğıcda ədəbi qəhrəmanın xarakterinin formalaşmasında mühüm rol oynadığını vurğulamaqla yanaşı, daxili aləmini açmaqla, həssas və kövrək biri olduğunu üzə çıxarır.

“Zaten ana nedir, heç bilmiyordum. Anam ben daha süt cocuğu ikən – iki yaşımda iken vefat etmiş. Bu yüzden arkadaşlarım “ana, anam, anacığım” dedikçe göğsümün sol tarafında bir yerlerim tarifsiz acılarla sızlardı” [9, s.7].

Atasının ağzından çıxacaq hər cümlədə anasının adını eşitmək həsrətilə çırpınan Bürhanəddinin suallarına atasının soyuq cavabı sınıq qəlbini daha da yaralayır.

“Babamın ölümün de doğum kadar, yaşamak kadar dünya geleneginin tabii bir deveranı olduğunu anlatmış olması içimdeki öksüzlük acısını dindiremezdi. Galiba, babam bunu düşünemiyordu. Ben anama hasret idim ve anamla ilgili konuştuğumuz zaman, içimdeki tarifi zor sancı az da olsa diniyor ve en azından benim de bir anamın olduğu düşüncesi yüregimi ısıtıyordu” [9, s.11].

Daxili aləminin formalaşmasında, mənəvi aləminin dərinləşməsində, ruhən yetkinliyinin tamamlanmasında ana sevgisi ilə yanaşı, Allaha sonsuz sevgisinin də xüsusi rolu olmuşdur. Atası ilə getdiyi Kəbə səfəri bu sevginin üzə çıxmasında xüsusi çəkiyə malikdir. Bu səfər sadəcə səfər deyildi. Bu səfər rəmzi və fəlsəfi yüklü bir səfər idi. Bu səhnə qəhrəmanın daxili dönüş nöqtəsi: təmizlənmə, ruhən paklanma anı kimi çıxış edir. Məhz bu epizod insanın Allah qarşısında acizliyinin və kamillik qarşısında susqunluğunun fəlsəfi ifadəçisi kimi səciyyələndirilə bilər.

“Şimdi sevinilecek yerdeyiz. Ama her kesde hissin zirveye ulaştığı gözlə görülüyor, gözlerden akan yaşlar sel oluyor. İnsan sanki farklı bir aleme gelmişçesine sağa-sola bakıyor, ağlıyor, ağlıyor, ağlıyor. “Ləbbeyk Allahumme lebbeyk” nidaları yeri-göyü inlətiyor. Bir mahşeri kalabalık, bir uhnevi koşuşturma... Mahşerin ilk görüntüsü Kabe... İçimdeki ve inanıyorum ki, bütün insanların içindeki ukdelerin çözüldügü an... Artık göstəriş, riya, qürur, kibir, her şeyin, ama her şeyin kapının dışında burakıldığı zamanda ve mekandayım...Yıllardır tahsil etmeye çalıştığım ve asla doymak bilmedigim ilimlerin de boş olduğunu hakiki elmin işte şu andakı yaşanan samimi imandan, daha doğrusu, aşktan ibaret olduğunu da anlıyordum. Kısacası, Kabe sözün bittigi yer idi, size ne kadar anlatsam hisslerimin sadece katresini anlata bilirim” [9, s.34].

Yaşanan eşq İlahiyə qovuşma anıdır. Bu qovuşmadan sonra Bürhanəddin atasını itirir. Sanki son səfərində atası oğlunun mənən saflaşmasına, mənəvi kamilliyə ucalmasına vəsilə olmaqla, son borcunu yerinə yetirmiş, onu Allaha əmanət edərək bu dünyadan köçmüşdür. Həm mənəvi, həm də fiziki itki yaşayan Bürhanəddinin həyatında, eləcə də ümumilikdə ruhi halında yeni bir mərhələ – həyatla təkbətək – üz-üzə qalma mərhələsi başlayır.

Lakin Bürhanəddinin İlahiyə olan sevgisi, aldığı dini təhsil, görüşdüyü din xadimləri və müəllimləri ilə söhbətləri, bütün məqamlarda yalnız Allaha sığınıb ondan yardım diləməsi bu dünyada tək olmadığına, bütün işlərində Yaradandan güc aldığına böyük inam yaradır. “Bezm u rezm” əsərindən romana daşınan qeyri-adi yuxuları və bu yuxuların şəhərin tanınmış şeyxlərinə, din xadimlərinə yozdurulması, onların yozumunu bütün qəlbi ilə qəbul etməsi Bürhanəddinin qəlbinin İlahiyə bağlılığını oxucuya dərindən anlatma xarakteri daşıyırdı. Bununla da onun xarakterinin görünməyən cəhətlərini də günümüzə gətirirdi.

Bürhanəddinin hökmdarın qızı Terezherə elə ilk görüşdən aşiq olması və yaşadığı iztirablar süjetin həlledici məqamlarından biri olmaqla bərabər, həm də qəhrəmanın çoxşaxəli xarakterinin hərtərəfli öyrənilməsi yolunda növbəti əhəmiyyətli epizod kimi dəyərləndirilə bilər.

"Kendi kendime kaldıkca sultan kızı gözlərimin önündən gitmez oldu. Şiir yazarken sanat yapmak hevesiyle söyledigim sözleri bizzat yaşamaya başladım. Gönlüme söz keçiremez oldum. Bu sevdadan uzaklaşmak için ne yapmam gerekdigini düşündüm uzun-uzun, sonra da işimin olmadığı zamanlarda şehir dışındakı bağımıza, ya da ciftligimize gitmeyi, oralarda kafamı dağıtmayı itiyat haline getirdim, ama ne çare..." [9, s.44]

Bu epizod illərdir qazılıq vəzifəsi üçün yetişdirilən, yalnız elm öyrənmək, savadlı və ədalətli şəxs olmağı düşünən Bürhanəddinin həm ictimai-siyasi, həm də şəxsi həyatında dönüş yaradır və gələcək taleyinin tamamilə başqa səmtdə inkişafına səbəb olur. Gözlərimiz qarşısında obrazın mənəvi dünyası bir daha yeni bir prizmadan açılmış olur.

Artıq süjetin bu mərhələsində ədəbi qəhrəmanın duyğularını daha dolğun və təsirli formada əks etdirmək üçün şairin bədii yaradıcılığına müraciət edilir, sevgisi poetik misralarla dilə gətirilir. Bu məhəbbət Bürhanəddinin qəlbində bir təlatüm yaradır. Ədib bu eşq vasitəsilə həm də Qazini müəyyən qaydalara sığdırdığı rəsmi çərçivədən, formalaşmış simadan – yalnız ədalətli qərarlar verən, düzgün mövqeyini daima gözləyən ciddi vəzifə sahibliyindən uzaqlaşdıraraq, böyük məhəbbətlə sevən, duyğularının köləsi olan aşiq obrazına çevirir. Bu, adi məhəbbət deyil. Bu sevgi həm də hökmdarlığa qədər aparan yolun sonunda görünən açıq qapı funksiyasını daşıyır.

Beləliklə, ədəbi qəhrəmanımız bu ana qədər ədaləti əsas meyar kimi qəbul edən, sərhədləri, dəyişməz mövqeli, saf, təmiz niyyətli, qüsursuz, ideal şəxsiyyət fonunda təqdim olunur. Lakin siyasi güc əldə edən Qazinin daxilində hiss etməsə də, səssiz sarsıntı yaşanır. Xəyallarla gerçəkliyin eyni olmadığını görən zaman bəzi ziddiyyətlər, konfliktlər üzə çıxır. Bu ziddiyyətin yaşandığı məqamlarda obrazın xarakteri daha real məzmun daşımağa başlayır.

Müəyyən müddətdən sonra onun ədalət mövqeyində dəyişikliklər baş verir. Vəziyyəti dəyərləndirib ona görə qərarlar verən Qazinin bu cür davranışı, ilk növbədə, Terezherin atasının – hökmdarın əksinə olan qüvvələrlə görüşü və bu görüşün nəticəsini təxmin etsə də, susmağı, qarışmamağı ən doğru mövqe olaraq qiymətləndirməsi artıq daxildəki gərginliyin və qarşıdurmaların başlanğıcı idi, – desək, yanılmarıq. Bu susqunluq ədəbi qəhrəmanın təkcə qanunlarla yox, siyasi düşüncə və reallığın diktəsi ilə də hərəkət etməyə başladığını göstərir. Məhz bu məqam onun ideal qazılıq dönəmindən siyasi lider və real güc sahibinə keçidi ilə bağlı yaşanan ən böyük psixoloji çevriliş hesab oluna bilər. Bədii obrazın daxilində baş verən bu transformasiya prinsiplərilə reallıq, keçmişlə bu gün arasında qalan insanın daxili görüntüsünün açıq təzahürüdür.

Təsadüfi deyil ki, mənəvi dünyasındakı bu gərginliyi Terezher də hiss edir və atasının ölümündə sona qədər onu ittiham edir. Artıq müəllif Qazi Bürhanəddinin görünməyən tərəflərini açıb göstərməklə onu tarixi şəxsiyyətdən ədəbi qəhrəmana çevirməyi bacarır. Beləliklə, gerçəkliyin daha inandırıcı fonda təqdimi üçün daima yenilməz sərkərdə, sevilən ədalətli qazı kimi yox, məğlubiyyətləri, səhvləri, tərəddüdləri, qorxuları olan real obraz kimi də oxucu qarşısına çıxarır.

Ədəbi qəhrəmanın daxilində yaranan konflikt və ya qarşıdurmalar həyatında baş verən bəzi hadisələrlə daha da dərinləşir. Haqqı müdafiə edərkən haqsız yerə həbs olunması bu ziddiyyətlərin ən mürəkkəb formada üzə çıxmasına təkan verir. 51 günlük ağır həbsxana rejimi onun üçün həyat məktəbi – mənəvi təkamül, özünü tanıma və yenidən formalaşma mərhələsi olur. Güclü xarakteri, psixoloji dözümlülüyü və ən əsası Allaha bağlılığı köməyinə çatır və "Şimdi kime, neye kızacağımı bilmiyor, daha doğrusu, kızmam mı gerek diye düşünürken o zamana kadar sözlerine itibar ettigim, ama tekliflerini pek de kale almadığım Şeyh Kutlu Şir geliverdi gözlerimin önüne.. Sürekli israr ediyor ve şöyle diyordu:

Melikim, gel tövbe eyle! Tarikatımızı şereflendir, tasavvufa süluk et. Çile çekmeden adem hep yarım kalır. İlminiz var, ancak – irfanınız yok, – diyemiyordu. ama – ilm tek başına kafi

degildir. ... Siz şariatı iyi biliyorsunuz. Buna bir də mərfiət ekleseniz fena mı olur? Bu kabiliyet sizde mevcut... "Ölmədən öncə ölürüz", – buyuruğuna tabi olunuz..." [9, s. 80] və s. kimi çağırışları əsas dayaq nöqtəsi olur. Tənhalığa çəkilmiş sufi dərvişlər kimi həbsxananı təcrübə meydanı kimi qəbul edərək özünü sınamaq, gücləndirmək, olub bitənləri bir daha nəzərdən keçirmək üçün əlinə keçən fürsəti dəyərləndirməyi qərara alır.

Həbsxana divarları arasında tək-tənha düşüncələrə qərq olan Qazi bir daha əqidəsi, prinsipləri ilə reallıqlar arasında qalır. Zindan mühiti, içindəki qəzəb ona yeni bir güc verir. O artıq emosiyalarla çıxış edən, anlıq qərarlar verən, öz taleyini, gələcəyini düşünmədən ideyalarının, prinsiplərinin arxasınca düşən birindən təmkinli və səbirli, soyuqqanlı və vəziyyətə uyğunlaşdırılmış qərarlar verən birinə çevrilir və nəticədə "istedigim her şeyi kuvvetimle, bilegimin hakkıyla kendime musahhar edecegim. Bu benim aklım ve zekam, kuvvetim ve kudretim sayesinde muhal olmayacaq" [9, s.80-81], – qərarına gəlir.

Beləliklə, məhz həbsxana həyatı və burada verdiyi qərar onun xarakterində və o cümlədən həyatında yeni bir səhifənin açıldığından xəbər verirdi. Bu mərhələdən sonra siyasi baxışları dəyişən Bürhanəddin siyasi oyunların mahiyyətini anlayan, istənilən məqamda ən sərt qərarlar verməyi bacaran bir liderə çevrilir. Onu həbsxanaya saldıran Hacı İbrahimin oyunlarına "oyunla" cavab verməklə artıq fərqli seçim qarşısında qalarkən reallığı qəbul edən, siyasi iradəsini qətiyyətlə həyata keçirməyi bacaran, daha güclü və daha möhkəm xarakterlə qarşımıza çıxır.

Bu dəyişimin və real güc əldə etmənin bədii zirvəsi isə qəlbində sultanlıq iddiasının yer etməsidir. Bürhanəddinin qəlbində şəxsi iddia, hakimiyyət arzusu, liderlik ehtirası daxili dünyasına hakim kəsilir. Bu obrazın daxilində psixoloji və daxili dəyişimin davamıdır. Romanın lap əvvəlindən də biz bu prosesi izləyirdik. Lakin o zaman Bürhanəddin bu düşüncəsini qətiyyən dilinə gətirmirdi. Bu istək sadəcə, yuxular vasitəsilə oxucuya çatdırılırdı. Romanda ədəbi qəhrəmanın xarakterinin, daxili dünyasının dərkində yazıçının müraciət etdiyi yuxu motivinin oynadığı mühüm rol danılmazdır. Bu yuxular bədii detal kimi deyil, psixoloji, dini, rəmzi və fəlsəfi anlam daşıyan işarələr sistemi kimi təqdim edilir.

Yuxu və ya yuxugörmə həm də "qəhrəmanın psixoloji portretinin mühüm tərkib hissəsidir. Yuxugörmədə şüurun irreal aləmlə əlaqəsi güclənir, əsrarəngiz sirlər içərisində olan qəhrəmanı anlamaqdan ötrü mövcud şərtilikdən kənara çıxmaq tələb olunur" [10, s.163]. Bədii qəhrəman xüsusi həssaslıqla yanaşdığı yuxuları vəzifəsi, taleyi, fəaliyyəti, ölümü ilə bağlı İlahidən gələn işarələr kimi qəbul edir. Bu yuxular Qazinin həyatının əsas istiqamətverici qüvvəsidir. Bürhanəddin yuxularına o qədər bağlıdır və onların gerçəkliyə çevriləcəyinə o qədər inamlıdır ki, hətta işarələrin düzgün yozumuna günlərlə vaxt ayırır, haqqında uzun-uzadı düşünür. Ümumiyyətlə, Qazi Bürhanəddinin yuxulara bu cür yanaşması şəxsi dünyagörüşünün, inanc sisteminin və eyni zamanda dövrünün mədəni-mistik düşüncə tərzinin ifadəsidir.

Həmçinin "Yuxu bədii priyom olaraq mətn daxilində mətn strukturuna sahibdir. Müəllifin öz əsərində yer verdiyi yuxu əsərlə əlaqəli, fəqət müstəsna xarakterə sahib ayrıca mətndir. Yuxu əsərin daxilindəki daxili mətn olaraq əsərin gedişatına nüfuz etməyə qadir assosiativ vasitədir. Əsərdə yuxu motivlərinə yer verilməsi istisnasız hansısa məqsədə xidmət edir. Və daşıdığı sətraltı məna ilə əsərdəki ziddiyyətlərin üzə çıxarılmasına şərait yaradır. Bu anlamda yuxu bədii priyomdur və müəllifin tapmacasını tapmaqda oxucuya kömək edən semiotik vasitədir [5, s.83].

Şairin gördüyü yuxular həyatının bütün mərhələlərini əhatə etməklə müxtəlif funksiyaları: seçilmişlik, qoruma, xəbərvermə və s. yerinə yetirmişdir. Keçmişi və gələcəyi birləşdirən vasitə – yuxu, gələcəklə bağlı işarələr, simvollar, informasiyaların təzahür formasıdır. Lakin yuxunun daşıdığı yük bunlarla tamamlanmır. Yuxugörənin daxili qorxuları, şüuraltı narahatlıqları, aldığı mənəvi zərbələr də yuxuda öz ifadəsini fərqli formada tapmağa nail olur. Bu baxımdan qəhrəmanın hakimiyyətə gələcəyi ilə bağlı yuxular istəkləri ilə bərabər qeyri-adi duyumun – mistik intuisiyanın

daşıyıcısıdırsa, sui-qəsdlə öldürüləcəyi ilə bağlı gördüyü yuxular isə intuisiyadan əlavə, həm də şüuraltında yatan qorxusu və narahatlığı ilə bağlı idi.

“Yeni dalmıştım uykuya, başımın üzerine gök kubbeden bir kandil endi. Kandil parlak ışıklar saçıyor və o ışığın hemen yanından şöyle ses geliyordu: “Bən Cabbar-ı Alemim” [9, s.12].

Bu yuxu ilahi vəhyə yaxın bir hiss, təəssürat yaradır. Qazinin bir vəzifəni yerinə yetirmək üçün seçiləcəyi, müqəddəs bir missiyanı daşıyacağı anlamını verən yuxu əsərin ideyasını daha da gücləndirməyə xidmət edir.

Digər yuxusu: “Dünyada tufan çıkacak. Dünyaya ve dünyadakılara ondan böyük bir zarar gelecek. Fakat göküzünden senin üzerine o tufandan seni koruyacak bir şey inecek”, – dediler [9, s.58], əvvəlki yuxunun davamı olaraq yenə də seçilmişliyi ifadə etməklə yanaşı, fəlakətə qarşı qorunmanı da simvolizə edir. Bu, Qazinin öz vəzifəsini dini-əxlaqi bir vəzifə kimi deyil, müqəddəs bir iş kimi qəbul etdiyini göstərir.

Hətta sui-qəsdlə öldürüləcəyi ilə bağlı yuxu görməsi və hər dəfə real həyatda təhlükə ilə üzləşərkən və ya belə bir xəbər alarkən həmin yuxuları xatırlaması psixoloji xəbərdarlıq olmaqla yanaşı, həm də yol göstərici funksiyasını ifadə edirdi. Fikrimizcə, Vedat Ali Tok əsərin ideya xəttini, dinamizmini gücləndirmək üçün romana transfer etdiyi yuxularla Qazinin mənəvi üstünlüyünü və daxili zəkasını da ön plana çəkmiş olurdu. Müəllif bununla Qazinin mistik-fəlsəfi baxışlarını, onun keçmişlə gələcək arasında vəhdət hissini aşkar şəkildə vurğulayır. Qazi Bürhanəddin üçün yuxu, yuxu deyil, həm də qərarlarının yönləndiricisi, şəxsi inamın və intuisiyanın ifadəçisidir. Eləcə də daxili rəhbər, ilahi işarə daşıyıcısı, şəxsi inamın təzahürüdür. Beləliklə, Bürhanəddin həm də ilahi ilə əlaqə qura bilən mistik-fəlsəfi yönləri də olan bir şəxsiyyətdir.

Romanda Bürhanəddinin hakimiyyətlə bağlı gördüyü yuxular, hakimiyyətə keçmək arzusu və bunu haqqı olaraq qəbul etməsi, nəhayət, hakimiyyətə gəlişi Freydin “yuxu sıxışdırılmış hisslərin və basdırılmış arzuların təzahürüdür” [5, s.79] nəzəriyyəsinin bədii ədəbiyyatda təsdiqi kimi meydana çıxır.

Əli bəyin zəifliyi, Qazinin onu dəfələrlə rüsvayçı məğlubiyyətlərdən qurtarması, siyasi və hərbi gücünün meydana çıxması, güclü nüfuza sahibliyi həmin məqamın yetişməsinə şərait yaradır. Yuxuların gerçəkləşməsi prosesi beləcə başlayır.

Bütün bu dramatik dəyişikliklərə baxmayaraq, Bürhanəddin bəzi prinsiplərinə hələ də sadiqdir, daxilindəki insani münasibətlər, humanistlik özünü psixoloji məqamlarda üzə vurur. Atasının yerinə keçən, ancaq hakimiyyəti əyləncələri üçün bir vasitə gözündə görən Əli bəyə yardımlarını əsirgəməməsi bunun göstəricisi kimi çıxış edə bilər. Bu yardımı bir tərəfdən xalqın rifahını düşünərək edirsə, digər tərəfdən şəxsi münasibətləri kontekstində Terezherin məmnunluğu üçün etmək məcburiyyətində idi. Çünki Terezherin onu növbəti dəfə günahlandırmasından çəkinirdi. Bu isə yalnız siyasətçi deyil, eyni zamanda ailə münasibətlərinə hörmətlə yanaşdığını və sadiqliyini göstərirdi. Bu mövqe onun çoxşaxəli ziddiyyətli xarakterini bir daha oxucunun diqqət mərkəzinə gətirir.

Əli bəyi qorumaq, Qılıc Arslanla aralarında yaranmış münaqişənin həlli yolunda atdığı addımlar, Amasya bəyi Şadgəldi ilə mübarizəsi,Teymurləngin elçiləri ilə davranışı, Hacı İbrahimin dostu Hacı Mükbili aradan götürmək üçün həyata keçirdiyi planlar siyasət aləmində işlətdiyi manevrlərdən idi. Bürhanəddinin hakimiyyəti və üstünlüyü naminə edə bilməyəcəyi bir şey yoxdur. Hətta övladını öldürən Bəyazidə Teymurləngə qarşı birləşmə təklif etməsi də onun hər kəsin edə bilməyəcəyi siyasi gedişi idi. O bu qədər qüdrətli və bu qədər də güclü siyasətçi və ağıllı idarəçidir. Romanda müəllif onu belə təqdim etmişdir.

Bürhanəddin həm də inadkar və səhvindən nəticə çıxaran biridir. Amasya bəyi Şadgəldinin ordusu tərəfindən məğlubiyyətə uğradıqdan sonra bunun səbəblərini düşünməsi, yol verilən səhvləri analiz edərək düzəltməyə çalışması sonda istəyinə nail olmasına gətirib çıxarır. Lakin Bürhanəddin düşmənini qiymətləndirməyi də bacarır. Qazi Bürhanəddinin Esterabadiyə müraciətlə “Bu güne

kadar benim en mert düşmanım her şeye rağmen, Hacı Şadgəldi olmuşdur. "Düşmandı, fakat mertti" [9, s.170], – fikirlərini söyləməsi düşməninin belə yaxşı keyfiyyətlərini görüb dilinə gətirə biləcək qədər mərd olduğunu deməyə əsas verir.

Ədəbi qəhrəman sonda güvəndiyi yaxın ətrafı tərəfindən fiziki və mənəvi olaraq məğlub edilir. Kayseri bəyliyini etibar etdiyi Şeyx Müəyyədin xəyanətini bağışlamayaraq edam etdirir. Nəticədə Qara Yoluq Osman Qazinin həm Şeyx Müəyyədi öldürməyəcəyi vədinə əməl etməməsi, Kayseri bəyliyini ona yox, oğluna verməsini, həm də otlaq sahələri üçün ondan vergi istəməsini qəbul edə bilmir və hər şeydən xəbərsiz Qaziyə hücum edərək onu yaralayır və öldürürür. Bürhanəddin yaxın qohumluq əlaqəsində olan bu şəxslərin xəyanətinin qurbanına çevrilir.

Romanda diqqət çəkən və qəbul edilməsi mümkün olmayan məqamlardan biri də müəllifin mövqeyinə uyğun olaraq Qazinin təsəvvüfdən tamamilə uzaq şair kimi təsviridir. Əlbəttə, Qazi yaradıcılığında təsəvvüfün olması ilə bağlı fərqli fikirlər söylənilmişdir. Lakin yekun olaraq aparılan tədqiqatlar bu mövqeyin əksini deməyə əsas verir. Habelə "tədqiqatçıları çaşdıran məsələlərdən biri də Siracəddin Hacının, Abdulkadir Qaraxanın, Əli Nihad Tərlanın da qeyd etdiyi kimi, ilahi sevgi ilə bəşəri sevginin Qazi yaradıcılığında qarışıq ifadə olunmasıdır. Birindən digərinə sürətlə keçid edilməsidir. Yəqin ki, şairin yaradıcılığında sufi görüşlərin olması fikrini pərdələyən səbəblərdən biri də həyat tərzi ilə bağlı idi" [6, s.55].

Doğrudur, "Qazi Bürhanəddin haqqında Y.Əmrə, Şəbüstəri haqqında dediyimiz – "bir təsəvvüf şairidir", - fikrini ifadə edə bilmərik... [6, s.66]

Lakin araşdırma apararkən "ayrı-ayrı beytlərdə dağınıq şəkildə verilmiş vəhdəti-vücud fəlsəfəsi ilə bağlı şairin görüşləri də diqqətimizi cəlb etdi. Həmin fikirləri sistemləşdirib bir yerə topladıqda məlum oldu ki, vəhdəti-vücud fəlsəfəsinə geniş yer verən sənətkar ayrı-ayrı beytlərdə onun mərhələ və yollarından da bəhs edən müddəaları əks etdirmişdir. Fikrimizcə, bununla da, qaldırılan məsələ ilə bağlı tədqiqatı yekunlaşdıraraq əminliklə demək olar ki, təsəvvüfi görüşlər, sufizm ideyaları Qazi Bürhanəddin "Divan"ının aparıcı ideya istiqamətlərindən biri kimi çıxış etmişdir" [6, s.66].

## Nəticə / *Conclusion*

Nəhayət, ədəbi qəhrəmanın "mübariz, cəsur keyfiyyətləri ilə bərabər insani zəiflikləri, səhvləri, tərəddüdləri, keçirdiyi sarsıntılar da unudulmamalıdır. Yalnız bu vəhdət nəzərə alındıqda qəhrəman sevilə bilər" [1, s.210].

Beləliklə, Vedat Ali Tokun romanında yaradılmış Qazi Bürhanəddin obrazı qəhrəmanlığı xeyirxahlığı, həssaslığı ilə yanaşı, sarsıntıları, səhvləri, zəif cəhətləri ilə birgə təsvir edilərək ədəbi qəhrəmana çevrilə bilmişdir.

## Ədəbiyyat / *References*

1. Axundlu Yavuz. Məmməd Səid Ordubadi və tarixi roman janrının bəzi məsələləri (həyatı, dövrü, mühiti və yaradıcılığı). – Bakı: Elm və Təhsil, 2012, 384 s.
2. Axundlu Yavuz. Azərbaycan sovet tarixi romanı. – Bakı: Yazıçı, 1979.
3. Bağırlı Aygün. "Azərbaycan və Türkiyə nəsrində Qazi Bürhanəddinin bədii obrazı". Azərbaycan-Türkiyə münasibətləri II Beynəlxalq Elmi Konfransının Materialları (Bakı, 12-14 oktyabr), Kastamonu, 2018.
4. Esterabadi Aziz b. Erdeşir. Bezm u rezm (Eglence ve savaş), Çeviren: Mürsel Öztürk. – Ankara, 1990, 508 s.
5. Əhmədova Aliyə. "Yuxunun bədii priyom kimi işlənmə xüsusiyyətləri". – ADU-nun elmi Xəbərləri, №3-4, 2018.

6. Əliyeva Səltənət. Qazi Bürhanəddin Divanınnı sənətkarlıq xüsusiyyətləri (filologiya üzrə fəlsəfə doktorluğu dissertasiyası). – Bakı, 2021, 178 s.
7. Hüseyn Mehdi. Yazıçı və tarix. Seçilmiş əsərləri, 3 cilddə, III cild. – Bakı: Avrasiya Press, 2005, 312 s.
8. Şərifova Salidə. Azərbaycanda roman janrının meydana gəlməsi. DÜMAD (Dünya Multidisipliner Araştırmalar dergisi), 7(2), 2024.
9. Vedat Ali Tok Kadı. (Kadı Burhaneddin romanı) – İstanbul: Akıl Fikir Yayınları, 2016, 192 s.
10. Zeynalova Dilbər. "Bədii əsərdə yuxugörmə və onun funksiyası". AÜ Türkiyat Araştırmaları Enstitütüsü (TAED), 45. – Erzurum, 2011.

## Образ Гази Бурханеддина в единстве исторической реальности и художественного воображения

**Салтанат Алиева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: selteneta@gmail.com

**Резюме.** Жанр романа играет особую роль в точном и ясном донесении до читателей широких и всеобъемлющих тем литературы, в том числе исторических реалий. Когда писатель обращается к историческим темам, перед ним ставится ряд условий: определение художественного воображения и относительности фактов, обширные познания по теме, рассмотрение более сложных событий, избегание искажений и т.д. Эти принципы были также соблюдены в романе турецкого писателя Ведата Али Тока о жизни азербайджанского поэта Гази Бурханеддина, жившего в XIV веке. Лишь иногда нарушается равновесие между художественным воображением и включением фактов в роман. Также одним из спорных моментов романа является утверждение, что Гази совершенно далек от суфизма. В статье кратко затрагивается эта тема и делается вывод о том, что Гази был близок к суфизму. Автор соединил положительные качества Гази Бурханеддина с его ошибками и недостатками, превратив тем самым историческую личность в литературного героя.
**Ключевые слова:** роман, литературный герой, историческая тема, правитель, художественное воображение